UOT 338

Pərvin Saləddin qızı CƏFƏRLİ
doktorant, Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail: parvin.jafarli@hotmail.com
https://doi.org/10.30546/4.71.73001.2026.005.034

İSTEHLAKÇI TƏLƏBİ VƏ TƏKLİF TARAZLIĞI: İSTEHLAKÇI QİYMƏTLƏRİ İNDEKSİNDƏN ASILILIQ

Xülasə

Tədqiqatın məqsədi istehlakçı tələbi ilə ərzaq bazarında təklifin formalaşmasına təsir edən amilləri araşdırmaqdan, tələb və təklif tarazlığının istehlakçı qiymətləri indeksindən asılılığını müəyyənləşdirməkdən ibarətdir.

Tədqiqatın metodologiyası müqayisəli təhlil və qiymətləndirmə üsullarından ibarətdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti tələb və təklif tarazlığının istehlakçı qiymətləri indeksindən asılılığını tədqiq etməklə onlar arasındakı əlaqənin uzlaşdırılmasının əsaslandırılmasından ibarətdir.

Tədqiqatın nəticələri əsasında məlum olur ki, tələb və təklif tarazlığı ilə istehlakçı qiymətləri indeksi arasında əhəmiyyətli əlaqə mövcuddur. Ona görə də ərzaq bazarlarında istehlakçıların tələbatının ödənilməsində bu amilin nəzərə alınmasının vacibliyi öz təsdiqini tapır.

Tədqiqatın elmi yeniliyi tələb və təklif tarazlığı ilə istehlakçı qiymətləri indeksinin dəyişməsi arasındakı uyğunluğun təmin edilməsinə yönəlmiş səmərəli mexanizmlərin tətbiqinə əsaslanan konseptual və praktiki yanaşmaların əlaqələndirilməsində özünü göstərir.

Açar sözlər: tələb, təklif, tarazlıq, qiymət indeksi, səmərə.

Giriş

Tələb və təklif tarazlığı bazarın fəaliyyətini tənzimləməklə dayanıqlı iqtisadiyyatın formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, tələb və təklif tarazlığı investorlara və sahibkarlara bazar şəraitini qiymətləndirməyə və prosesləri proqnozlaşdırmağa, istehsal həcminin, gəlir və mənfəətin səviyyəsi ilə bağlı əsaslandırılmış qərarlar qəbul etməyə imkan verir. Bununla əlaqədar olaraq yaranan bazar tarazlığı mümkün maksimum rifaha nail olmağa da zəmin yaradır. Qeyd etmək lazımdır ki, istehlak bazarlarında ticarət və vasitəçilik şəbəkəsinin iştirakçıları olan istehsalçılar, vasitəçilər və istehlakçılar yalnız potensial imkanlara deyil, həm də rəqabət qabiliyyətli məhsullara bazarın reaksiyasına diqqət yetirirlər. Bu baxımdan mikroiqtisadiyyatın klassik modellərində məhsulun qiymətini və satışın həcmini müəyyən edən tələb və təklif xətlərinin kəsişməsindən əmələ gələn tarazlıq nöqtəsinə xüsusi önəm verilir. Araşdırmalara əsaslanaraq qeyd etmək lazımdır ki, müxtəlif amillərin təsirinə məruz qalan tarazlıq vəziyyətinin idarəetmə fəaliyyətləri vasitəsilə ilkin vəziyyətə qayıtması və ya ona yaxınlaşması bazar sisteminin sabitliyinə gətirib çıxarır [3, s. 61]. Belə vəziyyətdə sabitlik halı yaranır ki, bu da qiymət və satış həcmi kimi göstəricilərin bölgü qanunu ilə təsdiqlənir.

Real bazar şəraitində eyni məhsula müxtəlif qiymətlərlə istehlakçı tələbi əsasında təklifin həcmi müəyyənləşir. Bununla bağlı istehlakçı tələbinin mühüm xüsusiyyətləri özünü aşağıdakı istiqamətlərdə təsdiq edir: alqı-satqı prosesində vasitəçilər istehlakçı tələbini təmin etməyə və məhsulların qiymətini lazımi səviyyədə tənzimləməklə maksimum mənfəət əldə etməyə çalışır; çox yüksək qiymətlər məhsula istehlakçı tələbatının azalmasına gətirib çıxarır; mənfəətin azalması ilə satış həcminin aşağı düşməsi tələbin ödənilməsinə mənfi təsir göstərir və s. Beləliklə, bazarların optimal davranış meyarı istehlakçı tələbinin maksimum ödənilməsinə yönəlmiş fəaliyyətlərlə sıx bağlıdır. Bu tələblər daha əlverişli bazarlar əldə edilməsi ilə bağlı ehtiyacları istisna etmir, çünki bazarın fəaliyyəti, onun iştirakçılarının tələbini müəyyən edir. Alqı-satqı nəticəsində ümumiləşdirilmiş tələbi formalaşdıran əlaqələndirilmiş proseslər yeni tələbi formalaşdırır [2, s.37]. Nəticədə, ümumi-

ləşdirilmiş istehlakçı tələbinə uyğun təklifin həcminin müəyyən edilməsi tələb və təklif funksiyasının tarazlıq problemini həll edə bilir.

İstehlakçı tələbi və təklifin səviyyəsi

Bazarların fəaliyyəti ilə bağlı mövcud iqtisadi vəziyyətin müəyyən edilməsi istiqamətində aparılan araşdırmalar, bazarın ən mühüm mexanizmləri olan tələb və təklif tarazlığının əhəmiyyətini önə çıxarır. Tələb və təklifin tədqiqi təkcə bazarın fəaliyyəti ilə bağlı deyil, həm də onun formalaşma perspektivləri haqqında məlumat əldə etməyə, bu əsasda inkişaf perspektivlərini müəyyən etməyə imkan verir. Tələb və təklif tarazlığı iqtisadi-sosial inkişafın zəruri komponentlərdən hesab edilir. Belə ki, tələb sosial ehtiyacların ödənilməsinin əksi kimi özünü təsdiq etməklə istehsal və istehlakın uyğunluğunu nəzərdə tutur. Təklif istehsal-satış prosesi nəticəsində yaranır, təklifin həcmi ilə sıx bağlıdır. Tələb və təklif arasındakı əlaqə aşağıdakı amillərdən asılıdır:

- tələb və təklifin oxşar amillərdən, xüsusilə xərclərin səviyyəsindən asılılığı;
- tələbatın artması ilə məhsulun maya dəyərinin aşağı salınması arasındakı asılılıq;
- tələb və qiymət arasında əks-əlaqənin mövcudluğu, yəni məhsulun dəyəri artdıqda tələbin azalması və əksinə;
- təklifin həcmi və qiymət arasında birbaşa əlaqə, yəni məhsulun qiymətinin artımı şəraitində istehsalçılar daha çox məhsul təklif etməkdə maraqlıdır.

Araşdırmalar əsasında müəyyən olunur ki, tələb və təklif müxtəlif komponentlərdən ibarət ən mürəkkəb iqtisadi qruplar sırasında olub çoxsaylı təsirlərə məruz qalır. Ona görə tələb və təklif tarazlığı hərtərəfli təhlillərin aparılmasını tələb edir. Bu istiqamətdə ilk növbədə, bazarın tutumunun, qiymətlərin səviyyəsinin, məhsulların satınalma xüsusiyyətlərinin, satış kanallarının və məhsul satışının stimullaşdırılması üsullarının müəyyən edilməsi vacibdir. Eyni zamanda,bu prosesdə istehsalla yanaşı satış imkanlarının müəyyən edilməsi də vacib məqamlardandır.

Göstərilənlər əsasında tələb və təklifin təhlilində aşağıdakı ardıcıllığın nəzərə alınmasının vacibliyini qeyd etmək olar:

- dövlət ehtiyacları və cəmiyyətin tələbatı baxımından yerli və qlobal bazar səviyyəsində tələb və təklifin həcminin müəyyən edilməsi;
- bazarların fəaliyyətini daha ətraflı xarakterizə edən göstəricilərin və parametrlərin müəyyən edilməsi;
- təhlil məqsədilə məlumat mənbələrinin müəyyən olunması və daha etibarlı məlumatlara çıxışın əldə edilməsi;
- zəruri məlumatların toplanması, nəzarətin təmin edilməsi, məlumatların təsnifləşdirilməsi və emalı;
- tələb və təklifin formalaşmasında qanunauyğunluqların aşkara çıxarılması, konkret istiqamətlər üzrə araşdırmaların aparılması;
- tələb və təklif tarazlığının təmin edilməsi məqsədilə müəyyən əmtəə qrupları, ayrı-ayrı məhsullar və ümumilikdə bazarların inkişaf perspektivləri barədə əsaslı proqnozların işlənib hazırlanması və s.

Son dörlərdə bazarların inkişafı daha mürəkkəb istehlakçı davranışının rasionallığı və irrasionallığı ideyalarına əsaslanır. İstehlakçı davranışının rasionallığı, onların davranışı üçün stimullara təkcə maddi nemətlər istəyi ilə deyil, həm də psixoloji xarakterli müəyyən elementləri - adət-ənənələr, nüfuz, iqtisadiyyatı tarazlıq vəziyyətində saxlamaq üçün dövlət müdaxiləsi və s. kimi mühüm məsələləri nəzərdə tutur. İstehlakçı davranışının irrasionallığı insanların emosiyaları ilə əlaqəlidir (sevinc, kədər və s.). İstehlakçı modelləri ehtiyacların artan müxtəlifliyi və proqnozlaşdırıla bilən davranışlarla xarakterizə olunur. İqtisadi baxımdan istehlakçı davranışı modelinin yeni çeşidi iqtisadiyyatda növbəti istiqaməti təşkil edir.

İstehlakçıların rasional davranışı ilə müasir iqtisadiyyatda qəbul edilən faktiki davranış arasında müəyyən ziddiyyətlər də mövcud olur. Belə ki, bəzi hallarda alqı-satqı zamanı yoxlanılmayan istehlak mallarının seçilməsi prosesində rasional istehlakçı seçimi ilə real istehlakçıların təcrübəsi arasındakı uyğunsuzluq, tarazlığın pozulması problemini yaradır [4, s.46]. Qeyd etmək lazımdır

ki, rasional istehlakçı modeli məhsulların çoxölçülü xüsusiyyətləri nəzərə alınmaqla, kommunal xidmətlərin bərabər dəstinin qurulmasını nəzərdə tutur. Beləliklə, tələb nəzəriyyəsinə yenidən baxılması, problemin mürəkkəbliyi və istehlak nəzəriyyəsi ilə praktikası arasında uyğunsuzluğun mövcudluğu ilə əlaqədar yaranır.

Araşdırmalar göstərir ki, optimal istehlakçı davranışının neoklassik nəzəriyyəsinin inkişafı, bazar və istehlakçı davranışının qiymətlərin dəyişməsinə reaksiyası kimi müəyyən edilir. Bu baxımdan istehsal prosesində xərclərin minimuma endirilməsi, daimi faydalılığı olan tələb funksiyasının bir növü kimi şərh olunur. Bu prosesdə qiymətin dəyişməsi ilə bağlı faydalılıqda hər hansı dəyişiklik, gəlir və faydalılığın dəyişməsi ilə kompensasiya edilir. Kompensasiya edilmiş tələb funksiyaları istehlak xərclərinin minimuma endirilməsini nəzərdə tutur. Qeyd edildiyi kimi, tələbin müşahidəsi məkan və zamanda nöqtələrin qarışdırılmış sahəsi olduğundan, təchizatla bağlı məsələlərdə bir çox amillərin və hadisələrin zamanla fərqli təsiri müşahidə edilir [6, s.72]. Bu isə istehlakçıların tələbatlarının ödənilməsi səviyyəsində özünü göstərir. Göstərilənlər çərçivəsində əsas növ ərzaq məhsullarının adambaşına illik istehlakı göstəricisinin dinamikası göstərir ki, əksər məhsul növləri üzrə 2019-cu illə müqayisədə 2023-cü ildə artım baş vermişdir. Belə ki, təmizlənmiş düyü istehlakında müqayisə olunan dövr üzrə 8,5%, makaron məmulatlarında 2,1 dəfə, marqarin üzrə 13,9%, meyvə və tərəvəz şirələrində 54,5%, kərə yağında 18,2%, bütün növ pendirlər üzrə 6,9%, qatıq, qaymaq, yoqurt və s. məhsullarında 9,9% artım, un (bütün növləri) məhsulları üzrə 49,3%, bitki yağlarında 49,1%, şəkərdə 3,8%, çay məhsulları üzrə 40,9%, şirinləşdirilməmiş mineral və qazlı sularda 41,5% azalma qeydə alınmışdır (cədvəl 1).

Cədvəl 1


Əsas növ ərzaq məhsullarının adambaşına istehlakı, illik kiloqramla [7]

Məhsullar	2019	2020	2021	2022	2023	2019-cu illə müqayisədə 2023-cü ildə, %-lə
Təmizlənmiş düyü	5,9	6,4	6,3	6,0	6,4	108,5
Un (bütün növləri)	84,6	84,4	60,1	47,5	42,9	50,7
Makaron məmulatları	1,6	2,2	2,8	3,5	3,3	2,1 dəfə
Bitki yağları	16,1	15,3	9,4	8,4	8,2	50,9
Marqarin	3,6	4,2	4,1	4,9	4,1	113,9
Meyvə və tərəvəz şirələri	2,2	2,7	3,1	4,0	3,4	154,5
Kərə yağı	3,3	3,6	3,8	4,0	3,9	118,2
Bütün növ pendirlər	5,8	6,0	6,1	6,4	6,2	106,9
Qatıq, qaymaq, yoqurt və s. məhsullar	14,1	15,6	15,2	14,6	15,5	109,9
Şəkər	26,3	26,9	27,3	27,3	25,3	96,2
Çay	2,2	2,3	1,3	1,3	1,3	59,1
Şirinləşdirilməmiş mineral və qazlı sular	4,1	2,7	4,2	1,9	2,4	58,5

Məlum olduğu kimi, istehlakçıların tələbatlarının ödənilməsi səviyyəsi bir çox amillərdən, o cümlədən təklifin səviyyəsi, qiymətlər və istehlakçıların alıcılıq qabiliyyətindən asılıdır. Bununla yanaşı, gündəlik istehlak məhsullarından çörək və çörək məhsullarının qiyməti və alıcılıq qabiliyyəti demək olar ki, həmin məhsulların istehlakının həcminə ciddi təsir etmir. Bu baxımdan çörək və çörək məhsulları (una çevirməklə) üzrə faktiki istehlakın istehlak normasının müqayisəsi göstərir ki, 2019-cu ildə faktiki istehlak istehlak normasından 33,0%, 2020-ci ildə 33,1%, 2021-ci ildə 52,4%, 2022-ci ildə 62,4%, 2023-cü ildə 66,1% az olmuşdur (diaqram).

Qeyd edilənlər göstərir ki, tələb və təkliflə bağlı tarazlıq nöqtəsi və onların həcmi arasında uyğunluq kənar təsirlər hesabına mümkündür. Çünki tələb və təklif arasında korrelyasiya daim müxtəlif istiqamətlərdə dəyişir, onların həcminin bu və ya digər vaxtlarda artması və azalması

müşahidə olunur. Tələb və təkliflə bağlı araşdırmalarda ən mühüm məqsədlərdən biri onlar arasındakı tarazlıq nöqtəsinə mümkün qədər yaxınlaşdırmağı təmin etmək, bu çərçivədə ən mühüm amilləri aşkara çıxarmaqdır. Bu baxımdan qiymətlərin səviyyəsi xüsusi təsirə malikdir. Belə ki, qiymətlərin artımı istehlaka mənfi, istehsala isə stimullaşdırcı təsir göstərir və əksinə. Qiymətlərin aşağı düşməsi fonunda alıcılıq qabiliyyətindən asılı olaraq tələbatın ödənilməsi imkanları genişlənir.



Diaqram. Çörək və çörək məhsulları (una çevirməklə) üzrə orta hesabla hər nəfərə görə faktiki istehlak və istehlak norması, kq-la [8]

İstehlakçı qiymətləri indeksinin dinamikası

Qiymətlərin səviyyəsi iqtisadi sistemin inkişaf səviyyəsini xarakterizə edən göstəricilərdəndir. Qiymətlərdə baş verən dəyişikliklər həm bütövlükdə ölkə iqtisadiyyatı, həm də onun müxtəlif seqmentləri haqqında tam və əhatəli məlumat vermək imkanına malikdir. Bu baxımdan istehlakçı qiymətləri indeksi istehsalçılar üçün maliyyə və investisiyaların planlaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir və istehlakçı davranışının formalaşmasına ciddi təsir edir. İstehlak qiymətləri indeksindən istifadə etməklə müxtəlif ölkələrin iqtisadi sisteminin, eləcə də bazarların dinamikasını təhlil etmək mümkündür. İstehlak qiymətləri indeksi əsas dövrlə müqayisədə cari dövrdə istehlak səbətinin dəyərinin nisbi dəyişməsini göstərən sintetik göstərici kimi istehlak səbətinə daxil olan əmtəə və xidmətlər əsasında hesablanır [5, s.14]. Bir qayda olaraq, buraya statistik məlumatlar əsasında müəyyən edilmiş aşağıdakı mal və xidmətlər üzrə orta aşağıdakı istehlak göstəriciləri daxil edilir: ərzaq və əsas qeyri-ərzaq məhsulları; elektrik enerjisi istehlakı və mənzil-kommunal xidmətlərdən istifadə; nəqliyyat xərcləri; tibb və səhiyyə müəssisələrinin xidmətləri; təhsil xərcləri; illik və gündəlik istirahət xərcləri və s.

“Qiymət amili multiplikator xüsusiyyətinə malik olduğundan onun iqtisadi inkişaf proseslərinə müsbət təsiri kifayət qədərdir. Əhalinin iqtisadi fəallığının artması və iqtisadi inkişaf proseslərinin sürətləndirilməsi öz növbəsində məvacibərin və gəlirlərin artımına səbəb olmaqla bərabər, daha yüksək ərzaq qiymətlərinin olduğu təqdirdə belə, onların fəal surətdə alınması və istehlakını təmin edir” [1, s.28-29]. Bu baxımdan qiymətlərin səviyyəsində baş verən dəyişikliklər, öz növbəsində istehlakçı tələbi və təklifin tarazlığına ciddi təsir göstərir. Bu, həm istehsalçı, həm də istehlakçı qiymətlərinə aiddir. Təhlil göstərir ki, 2024-cü ilin müvafiq ayları üzrə nəqliyyat, anbar təsərrüfatı və poçt xidmətlərinin istehsalçı qiyməti indeksi istisna olmaqla artan dinamika ilə özünü göstərmişdir. Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksində də davamlı artım qeydə alınmışdır. Statistik məlumatlar əsasında aylar üzrə bu artımın 3,3%, 2,1%, 2,4%, aprel, may və iyun


ayları üzrə 2,5%, iyulda 2,9%, növbəti aylarda ardıcıl olaraq 3,4%, 3,7%, 4,1%, 4,5% və 4,7% səviyyəsində olduğu məlum olur. Sənaye məhsullarının istehsalçı qiymət indeksi üzrə yanvar-fevral aylarından başqa digər aylar üzrə artım, nəqliyyat, anbar təsərrüfatı və poçt xidmətlərinin istehsalçı qiymət indeksində bütün aylarda azalma baş vermişdir [cədvəl 2].

Cədvəl 2

2024-cü ildə istehlak və istehsalçı məhsullarının qiymət indeksləri [9]

İllər və aylar	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə		
	Sənaye məhsullarının istehsalçı qiymət indeksi	Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi	Nəqliyyat, anbar təsərrüfatı və poçt xidmətlərinin istehsalçı qiymət indeksi
I	99,7	102,3	98,3
I-II	97,5	102,1	98,7
I-III	100,7	102,4	98,9
I-IV	102,4	102,5	98,8
I-V	103,5	102,5	98,4
I-VI	104,5	102,5	98,0
I-VII	105,3	102,9	98,2
I-VIII	104,4	103,4	98,1
I-IX	102,3	103,7	98,1
I-X	101,1	104,1	98,2
I-XI	100,3	104,5	98,5
I-XII	100,0	104,7	98,8

İstehlakçı qiymətləri indeksinin təhlili göstərir ki, əvvəlki ilin müvafiq dövrünə nisbətən istehlak qiymətləri indeksi yanvar ayında 1,7%, fevralda, 1,3%, martda 1,0%, apreldə 0,7%, mayda 0,6% və s. artmışdır. Daha böyük qiymət artımı noyabr və dekabr aylarında müşayiət edilir – müvafiq olaraq 2,0% və 2,2% [qrafik].



Qrafik. İstehlakçı qiymətləri indeksi, əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə

Məlum olduğu kimi, istehlakın həcmi iştirakçıların fərdi və ya kollektiv şəkildə hərəkət edərək öz ehtiyac və istəklərini təmin etmək üçün mal və ya xidmətlərdən istifadə etməklə bağlı imkan-

larını xarakterizə edir. İstehlakın həcmini müəyyən müddət ərzində tam və ya qismən istifadə edilən mal və xidmətlərin dəyərinə əsasən, eləcə də istehlak məqsədləri üçün alınmış və ya başqa yolla alınmış mal və xidmətlərin dəyərinə əsasən müəyyən etmək olar. Bütün bu amillər nəticə etibarilə tələb və təklifin tarazlığında özünü büruzə verir. Beləliklə, qeyd edilənlər nəzərə alınmaqla bazarda tələb və təklifi formalaşdıran amillərə xüsusi diqqət yetirilməsinin vacibliyini qeyd etmək lazımdır. Çünki həmin amillər bazarların fəaliyyətində balansı müəyyən edir. Eyni zamanda hər bir amil bazar balansına müxtəlif dərəcədə təsir göstərir. Bu baxımdan tələb və təklif amilləri arasındakı əlaqəni təhlil etmək və onların bazar balansına təsir dərəcəsini qiymətləndirmək vacibdir.

Nəticə

Araşdırmanın nəticələri göstərdi ki, istehlak bazarının səmərəli fəaliyyət modeli alıcılıq qabiliyyətli tələbin və təklifin, habelə dövlətin tənzimləyici rolunun təsiri ilə ərzaq məhsullarının istehsalçıdan son istehlakçıya çatdırılmasınadək bütün həlqələrin əlaqələndirilməsinə əsaslanır. Ona görə sabit tarazlıq vəziyyəti əldə etmək üçün bazarların strukturunu, tələb və təklifə hansı amillərin təsir etdiyini başa düşmək lazımdır. Bazarlarda təklif olunan məhsullar kəmiyyət, çeşid və keyfiyyət baxımından istehlakçıların tələblərinə tam cavab verdikdə tələb reallaşmış olur və faktiki tələblə üst-üstə düşür. Belə uyğunluq olmadıqda faktiki tələbin reallaşmamış hissəsi təmin olunmamış tələbata çevrilir və tələb-təklif tarazlığı problemi yaranır. Qeyd edilənlərə əsasən tələbatın ənənəvi ehtiyacların qorunub saxlanmasını xarakterizə edən daimi hissəsini və dəyişən hissəsini fərqləndirmək zərurəti yaranır. Təhlillər göstərir ki, ölkədə sosial-iqtisadi vəziyyətin dəyişməsi istehlakçıların aşağı, orta gəlirli və yüksək gəlirlilərə diferensiallaşması ilə müşayiət olunur. Nəticədə müxtəlif növ bazarların subyektlərinin gəlirlərinin azalması, bazarda istehlakçı davranışının dəyişməsini şərtləndirir. Bu isə onların gəlirlərinin qeyri-sabitliyi, zövqün və üstünlüklərin dəyişməsi ilə özünü göstərir. Beləliklə, bütün bu nəzəri ümumiləşdirmələr ayrı-ayrı məhsul növlərinə olan tələbatın təklifdən, qiymətlərin və gəlirlərin səviyyəsindən asılılığını təsdiq edir. Odur ki, istehlak məhsullarına tələbin inkişaf qanunauyğunluqlarını düzgün qiymətləndirmək və tələbi formalaşdıran amil xüsusiyyətlərinə xüsusi diqqət yetirməklə tələb və təklif tarazlığını təminetmə imkanlarını müəyyən etmək mümkündür.

ƏDƏBİYYAT

1. Quliyev E.A. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər. Bakı - 2018. “Kooperasiya” nəşriyyatı, 480 s.
2. Qafarov N.C. “Aqrar istehlak bazarının formalaşması və inkişafının iqtisadi problemləri”. Monoqrafiya. Bakı, 2023, “Kooperasiya” nəşriyyatı, 320 s.
3. Məmmədov E.Y. İstehlak bazarının idarə edilməsi. Dərslik. Bakı: “İqtisad Universiteti” nəşriyyatı. – 2019. - 204 s
4. Беляевский И. К. Региональный анализ потребительского рынка (опыт и методы статистического исследования) // Вопр. статистики. 2005. № 9.
5. Горбунов В.К. Математическая модель потребительского спроса: Теория и прикладной потенциал. Издательство: Экономика, 2004 г. 174 с.
6. Free, C. & Hecimovic, A. (2021) Global supply chains after COVID-19: the end of the road for neoliberal globalisation? Accounting, Auditing & Accountability Journal 34, 1, pp. 58–84, doi: 10.1108/AAAJ-06-2020-4634.
7. https://www.stat.gov.az/source/food_balances/
8. https://www.stat.gov.az/source/budget_households/
9. https://www.stat.gov.az/source/price_tarif/

Парвин Саладдин кызы Джафарли
докторант, Азербайджанский Государственный Аграрный Университет
Электронная почта: parvin.jafarli@hotmail.com

Потребительский спрос и равновесие предложения: зависимость от индекса потребительских цен

Резюме

Цель исследования заключается в изучении факторов, влияющих на потребительский спрос и формирование предложения на продовольственном рынке, а также в определении зависимости равновесия спроса и предложения от индекса потребительских цен.

Методология исследования основана на методах сравнительного анализа и оценки.

Важность исследовательского приложения состоит в обосновании согласования взаимосвязи между равновесием спроса и предложения и индексом потребительских цен посредством изучения их взаимозависимости.

Результаты исследования показывают, что между равновесием спроса и предложения и индексом потребительских цен существует значительная связь. Таким образом, подтверждается важность учета данного фактора при удовлетворении потребностей потребителей на продовольственных рынках.

Научная новизна исследования заключается в координации концептуальных и практических подходов, направленных на обеспечение соответствия между изменениями равновесия спроса и предложения и индексом потребительских цен, на основе внедрения эффективных механизмов.

Ключевые слова: спрос, предложение, равновесие, индекс цен, эффективность.

Parvin Saladdin Jafarli
PhD student, Azerbaijan State Agrarian University
E-mail: parvin.jafarli@hotmail.com

Consumer demand and supply equilibrium: dependence on the consumer price index

Summary

The purpose of the study is to examine the factors influencing consumer demand and the formation of supply in the food market, as well as to determine the dependence of demand–supply equilibrium on the consumer price index.

The methodology of the research is based on comparative analysis and evaluation methods.

The practical importance of the research lies in substantiating the harmonization of the relationship between demand–supply equilibrium and the consumer price index by investigating their interdependence.

The results of the research reveal a significant relationship between demand–supply equilibrium and the consumer price index. Therefore, the importance of considering this factor in meeting consumer needs in food markets is confirmed.

The scientific novelty of research is reflected in the coordination of conceptual and practical approaches aimed at ensuring the alignment between changes in demand–supply equilibrium and the consumer price index, based on the implementation of effective mechanisms.

Key words: demand, supply, equilibrium, price index, efficiency.